*KULTUROLOGİYA*
*КУЛЬТУРОЛОГИЯ*
*CULTUROLOGY*

**UOT 321.7:008**
**DOİ** 10.65058/PIYU9141

# DEMOKRATİYANIN GƏLƏCƏYİ: MƏDƏNİYYƏTİN ÜSTÜNLÜYÜ

**FRENSİS FUKUYAMA**
*Oliviye Nomellini adına baş elmi işçi*
*Demokratiya, İnkişaf və Hüququn Aliliyi Mərkəzi (CDDRL)*
*Beynəlxalq Siyasət üzrə Ford Dorsi magistr proqramının direktoru*
*Friman Spogli Beynəlxalq Araşdırmalar İnstitutu*
*Stendford Univerisiteti*

**Tərcümə ön söz:**
**YEGANƏ ƏLİYEVA***

*AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi,*
*kulturologiya üzrə fəlsəfə doktoru, dosent*
https://orcid.org/0000-0002-4496-5598
**E-mail**: eqana-aliyeva@yandex.ru

***Sitat gətirmək üçün***: Əliyeva, Y. (Tərcümə və ön söz). Fukuyama, F. Demokratiyanın gələcəyi: mədəniyyətin üstünlüyü / // Musiqi dünyası. Beynəlxalq elmi musiqi jurnalı. – Bakı, 2026. – Cild 28, № 1 (106). – s. 71-82.

**Xülasə**
Oxucunun diqqətinə Yaponiya əsilli amerikan politoloqu, filosof və mədəniyyət tədqiqatçısı Frensis Fukuyamanın "Demokratiyanın gələcəyi: mədəniyyətin üstünlüyü" (Democracy's Future: The Primacy of Culture, 1995) məqaləsinin Azərbaycan dilinə elmi tərcüməsi təqdim edilir. Məqalədə irəli sürülən müddəalar bu günədək öz aktuallığını itirməmiş, əksinə, cəmiyyətin inkişafında mədəniyyətin rolu barədə düşüncələrin getdikcə daha çox təsdiqini tapdığını göstərmişdir.Məqalənin müəllifi F.Fukuyama XXI əsrdə siyasi və iqtisadi institutların formalaşmasında mədəniyyət faktorlarının əsas amil kimi müəyyən etməsi Azərbaycan reallıqları

* © Yeganə Əliyeva, 2026

CC BY 4.0 DEED
Attribution 4.0 International

kontekstində onun əsərinə müraciət edilməsinin aktuallığını bir daha əsaslandırır. Fukuyama siyasi institutların sabitliyinin birbaşa cəmiyyətin sosiomədəni təməlindən asılı olduğu tezisini əsaslandırır. Tərcümə kulturoloji terminologiyanın xüsusiyyətlərinə uyğunlaşdırılıb, müəllifin kontekstini və əsas anlayışlarını aydınlaşdıran tərcüməçidən elmi şərhlərlə müşayiət olunur. Tərcümə kulturologiya, mədəniyyət siyasəti və sosial-mədəni fəlsəfə sahələrində nəzəri tədqiqatlar aparan mütəxəssislər üçün elmi mənbə rolunu daşıya bilər.
**Açar sözlər**: Frensiz Fukuyama, mədəniyyət, kulturologiya, mədəniyyət siyasəti, sosial-mədəni fəlsəfə

**Tərcüməçidən:**

Yaponiya əsilli amerikan politoloqu, filosof və mədəniyyət tədqiqatçısı Frensis Fukuyamanın “Demokratiyanın gələcəyi: mədəniyyətin üstünlüyü” (Democracy’s Future: The Primacy of Culture) məqaləsinin Azərbaycan dilinə tərcüməsini müəllifin özü ilə razılığa gəldikdən sonra geniş oxucu kütləsinə təqdim etməyə qərar verdim. Maraqlı məqam ondan ibarət idi ki, F. Fukuyama ilə 2023-cü ildə başladığım yazışmanın ilk məktubunda o, məqalənin tərcümə ediləcəyi təqdirdə ingilis dilindəki orijinal mətndən çevrilməsini xahiş etmişdi. Professor Fukuyamanın 1995-ci ildə “Journal of Democracy” jurnalında dərc olunan bu məqaləsi hansı səbəbdən diqqətimizi çəkmişdir? İlk növbədə, məqalədə irəli sürülən müddəalar bu günədək öz aktuallığını itirməmiş, əksinə, cəmiyyətin inkişafında mədəniyyətin rolu barədə düşüncələrin getdikcə daha çox təsdiqini tapdığını göstərmişdir. Fukuyamanın XXI əsrdə siyasi və iqtisadi institutların formalaşmasında mədəniyyət faktorlarının əsas amil kimi müəyyən etməsi Azərbaycan reallıqları kontekstində onun əsərinə müraciət etməyimizin aktuallığını bir daha əsaslandırır.

Məlumdur ki, Fukuyama 1989-cu ildə liberal demokratiyanın təntənəsi ilə bağlı tezisinində irəli sürdüyü “Tarixin sonu?” essesinin dərcindən sonra məşhurlaşdı. Lakin liberal demokratiyanın qələbəsi barədə tezisin birtərəfli şərhindən fərqli olaraq, Fukuyamanın bütün əsərləri – "Etibar"dan (Trust, 1995) "Siyasi Nizam və Siyasi Çöküş"ə (*Political Order and Political Decay,*2011) qədər – institusional inkişafı təyin edən mədəniyyət amillərinin dərin təhlilinə həsr olunmuşdur. F.Fukuyama sosial kapitalı, mədəni dəyərləri və normaları cəmiyyətlərin təşkilatlanma və adaptasiya qabiliyyətinin göstəricisi kimi müəyyən edir. Onun fikrincə, mədəniyyət iqtisadi inkişafın ikinci dərəcəli amili deyil, əksinə, onun əsas təməlidir: bəzi millətlərin uğurlu modernləşməsini, digərlərinin isə səmərəsiz institutların tələsinə düşməsini məhz mədəni parametrlər müəyyən edir. Bu tezis XXI əsrdə Azərbaycanın mədəniyyət siyasətinin strateji perspektivləri ilə səsləşərək xüsusi aktuallıq kəsb edir.

14 yanvar 2026-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan mədəniyyəti - 2040” Mədəniyyət

Konsepsiyası Azərbaycanın müasir mədəniyyətinin həyat tərzinin ayrılmaz tərkib hissəsinə çevrilməsini və onun fundamentallığını qorumaqla bu sahənin funksionallığının təmin edilməsini nəzərdə tutur. Bu sənəd Azərbaycan cəmiyyətini “mədəniyyət – incəsənətdir”, “mədəniyyət – üstqurumdur” yanlış və dar refleksiyanın buxovlarından azad edərək “mədəniyyət” anlayışına daha geniş və sistemli yanaşmanı təşviq edir. Konsepsiya mədəniyyət hadisəsinə həyat fəaliyyətinin bütün sferalarını əhatə edən kompleks fenomen kimi yanaşmağı təklif edir. Mədəniyyətə məhz bu prizmadan yanaşdıqda, müasir dünyada baş verən proseslərin izahı və cəmiyyətin mədəni dinamikasının dərk olunması üçün daha geniş imkanlar açılır.

Bu baxımdan "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasında Fukuyamanın baxışlarında əksini tapan eyni metodoloji təməlin izlərinə rast gəlinir. Konsepsiyaya görə, 2040-cı ilədək ölkənin mədəni kimliyi beynəlxalq rəqabət qabiliyyətinin əsas mənbələrindən birinə çevrilməlidir. Azərbaycan gündəliyi isə mühüm bir sualı gündəmə gətirir: növbəti iki onillikdə davamlı tərəqqini təmin edəcək mədəni irs və dəyərlər sistemi hansılardan ibarət olacaq?

Qlobal qeyri-müəyyənlik şəraitində, texnoloji və iqtisadi üstünlüklərin müvəqqəti xarakter daşıdığı bir dövrdə mədəni adaptasiya – universal səmərəlilik standartlarını mənimsəməklə yanaşı, milli kimliyi qorumaq bacarığı – strateji resursa çevrilir. XX əsrin sonlarından Fukuyama mədəni şərtlərin müxtəlif sivilizasiyaların inkişaf trayektoriyalarını necə müəyyən etdiyini ardıcıl şəkildə nümayiş etdirir. Fukuyamanın məqaləsi Azərbaycan kontekstində bu dilemmanı anlamaq üçün nəzəri çərçivə təqdim edir. Bu tərcüməni Azərbaycanın gələcəyinin mədəni təməlləri ilə bağlı müzakirələrə – ölkənin 2040-cı ilə aparan inkişaf trayektoriyasını müəyyən edəcək intellektual diskussiyaya – bir töhfə kimi təqdim edirik.

**Məqalənin ilk dəfə dərc olunduğu mənbə:**

Fukuyama, Francis. "Democracy’s Future: The Primacy of Culture."

*Journal of Democracy* 6, no. 1 (1995): 7-14. // https://dx.doi.org/10.1353/jod.1995.0007.

Maraqlıdır ki, gələcəkdə demokratiyanın hansı əsas potensial ideoloji və siyasi rəqibləri meydana çıxacaqdır? Düşünürəm ki, hal-hazırda ən ciddi rəqib Asiyada yaranmaqdadır. Eyni zamanda, gəldiyim qənaətə görə, ideologiya səviyyəsində baş verənlər vətəndaş cəmiyyəti və mədəniyyət səviyyəsində baş verənlərdən bir-başa asılı olacaqdır. Bunların səbəbini aydınlaşdırmaq üçün öncə xülasə şəklində metodoloji izahı təqdim edim.

Demokratiyanın konsolidasiyası dörd səviyyə üzrə baş verir ki, hər biri ayrı-ayrılıqda müvafiq təhlilləri tələb edir.

**Səviyyə 1: İdeologiya.** Bu demokratik institutların və onları dəstəkləyən bazar strukturlarının düzgün və yanlış təşkilatlanması haqqında normativ təsəvvürlər səviyyəsidir. Məlumdur ki, demokratik hakimiyyətin legitimliyinə inam olmasa demokratik cəmiyyətlərin ömrü çox uzun sürə bilməz. Digər tərəfdən, demokratiyanın legitimliyinə geniş yayılmış inam demokratik institutların yaradılması və ya onların konsolidasiyasının mümkün olmaması faktı ilə də yanaşı mövcud ola bilər.

Birinci mərhələ rasional özünüdərk sferasıdır; burada legitimliyin refleksiyası sahəsində dəyişikliklər gözlənilmədən baş verə bilər. Son 15 ildə demokratiya və bazar üçün əlverişli olan bu cür dəyişikliklər dünyanın müxtəlif regionlarında baş vermişdir.

**Səviyyə 2: İnstitutlar.** Bu sfera konstitusiya, məhkəmə, partiya sistemi, bazar strukturları və s. kimi təsisatları əhatə edir. İnstitutlar ideyalar tək sürətlə dəyişmir. Legitimliyə gəldikdə isə, onları dövlət siyasəti vasitəsilə manipulyasiya etmək mümkündür. Məhz bu səviyyədə, yeni demokratik dövlətlərin formalaşdığı dövrdə siyasi mübarizə gedir; artıq formalaşmış demokratik dövlətlərdə isə dövlət müəssisələrinin özəlləşdirilməsi, yeni konstitusiyaların hazırlanması və partiyaların konsolidasiyası istiqamətində səylər göstərilir. Neoklassik iqtisadiyyatın nümayəndələrinin əksəriyyəti İkinci dünya müharibəsindən sonrakı dövrün politoloqları kimi, məhz bu sözügedən səviyyənin təhlilinə istinad edirlər.

**Səviyyə 3: Vətəndaş cəmiyyəti.** Bu kortəbii (birdən-birə) yaradılmış sosial strukturlar səviyyəsidir. Bu strukturlar siyasi institutlardan da gec yaranır. Onlar dövlət siyasətinin manipulyativ təsirlərinə güclü müqavimət göstərir və hakimiyyətdən bilavasitə asılı vəziyyətdə olurlar. Yaxın vaxtlara qədər vətəndaş cəmiyyəti nadir hallarda təhlil predmetinə çevrilirdi. Qərbdə «vətəndaş cəmiyyəti» anlayışı modernizasiyanın qaçılmaz amili kimi qəbul edilir, Şərqdə isə marksistlər onu illüziya sayaraq inkar edirdilər. Kommunizmin süqutundan sonra "vətəndaş cəmiyyəti" anlayışı yenidən aktuallaşdı. Çünki post-totalitar cəmiyyətlərin sabit demokratik siyasi institutların yaradılması üçün mühüm şərt olan sosial strukturların çatışmazlığından əziyyət çəkdiyi təsdiq olunmuşdur [1]. Son 20 ildə politologiya sahəsində həmin təhlil metodu tətbiq edilərək maraqlı və əhəmiyyətli işlər görülmüşdür. Nəticədə müasir vətəndaş cəmiyyətlərinin demokratik institutlarla qarşılıqlı münasibətlərini təsvir etmək üçün zəngin taksonomiya və anlayış aparatı formalaşdırılmışdır.

**Səviyyə 4: Mədəniyyət**. Bu, dərin qatlardan ibarət səviyyədir; ailə, din, əxlaqi dəyərlər, etnik özünüdərk, «vətəndaşlıq» və partikulyar tarixi ənənələr kimi hadisələri özündə cəmləşdirir. Necə ki, demokratik institutların bünövrəsində sağlam vətəndaş cəmiyyəti dayanır, vətəndaş

cəmiyyəti də öz növbəsində mədəniyyət səviyyəsində öz varislik ənənələrinə arxalanır. Mədəniyyəti adətlər vasitəsilə nəsildən-nəsilə ötürülən irrasional etik vərdiş kimi müəyyən etmək olar.

Mədəniyyət yuxarıda göstərilən üç səviyyədə baş verən hadisələrin təsirinə məruz qalır, lakin onun daxilində dəyişikliklər tədricən baş verir. Təhlilllər göstərir ki, bu sahə sosiologiyanın və atropologiyanın tədqiqat obyektinə aiddir. Politologiyada mədəniyyət səviyyəsinin öyrənilməsinə vətəndaş cəmiyyəti probleminin öyrənilməsinə göstərilən diqqət qədər önəm verilməmişdir. Samuel P.Xantinqtonun demokratiyaya keçidin «üçüncü dalğa» adlandırdığı proses birinci səviyyə, yəni ideologiya səviyyəsi tərəfindən şərtləndirilən hadisə idi. Müxtəlif səbəblərə görə, legitimliyin qavranılması 70-80-ci illərin sonunda sürətli və ciddi dəyişikliklərə yol açdı. Məsələn, Latın Amerikasında hökümət başına bazar iqtisadiyyatına istiqamətlənmiş maliyyə nazirləri gəldi, kommunist dünyasında ilkin demokratik hərəkatlar meydana çıxdı, avtoritarizmin tərəfdarları isə demoralizasiya oldu. İdeologiyada bu cür dəyişikliklərin baş verməsi ikinci səviyyədə, yəni institutlar səviyyəsində uyğun strategiya barədə geniş debatların yaranmasına səbəb oldu. Məsələn, qradualizm və şok terapiyası arasında seçim məsələsi, eləcə də “Hansından başlamaq lazımdır: «iqtisadi islahatlardan» yoxsa «demokratiyadan»?” sualı gündəmə gəldi. Düzdür, institusional konsolidasiya prosesinin tezliklə başa çatması gözlənilməsə də, 80-ci illərdə ideoloji inqilablar baş verən bütün regionlarda bu səviyyədə əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Üçüncü səviyyə, yəni vətəndaş cəmiyyəti səviyyəsində baş verən dəyişikliklər daha ləng templərlə həyata keçib. Məhz bu səviyyədəki proseslər dördüncü səviyyə, yəni mədəniyyət sferasında baş verən proseslərdən bir başa asılıdır. Vətəndaş cəmiyyəti Polşa, Macarıstan, Çexiya və Baltikyanı ölkələrdə daha erkən intibah mərhələsini yaşamışdır. Çünki bu ölkələrdə köhnə kommunist elitasını əvəz etməyə qadir olan güclü alternativ elita mövcud idi. Sağlam sahibkarlıq sektorunun yaranması sayəsində bu ölkələrdə iqtisadi böhranın qarşısı alındı, siyasi həyat isə Qərbi Avropa modeli üzrə inkişaf etməyə başladı. Belarus, Ukrayna və Rusiyada vətəndaş cəmiyyəti böyük çətiniklərdən keçərək formalaşırdı. Bu ölkələr yeni institutlarda vakant vəzifələrə təyinat verdikdə köhnə kommunist elitasına güclü asılılıq vəziyyətində idilər. Bu fərqlilikləri mədəniyyət səviyyəsində də müşahidə etmək mümkündür. Üçüncü və dördüncü səviyyələr arasındakı qarşılıqlı əlaqələrin spesifik mexanizmlərinin izahı gələcəkdə demokratizasiya prosesini araşdıran tədqiqatçılar üçün əsas məqsədlərdən birini təşkil edəcək. Əminliklə demək olar ki, son dörd-beş il ərzində dünyanın bir çox regionlarında «üçüncü dalğa»nın geriləmə prosesi dörd mərhələdə baş verən dəyişikliklərin templərinin müxtəlifliyi ilə izah olunur. Normativ dayaqların bir anda dəyişməsi böyük ümüdlər yaratdı, lakin daha sonra doğrulda bilmədi. Bir çox ölkələrdə bu cür vəziyyətlər demokratiyaya doğru irəliləyişin

institutların yaradılmasına imkanlar əldə edilməmişdən dayandırılmasına səbəb oldu. Digər ölkələrdə ümidlər və reallıq arasındakı boşluq institutların konsolidasiyası zamanı əldə edilən tərəqqiyə ciddi təhlükə yaratdı, çünki bu, demokratik islahatların əsasını təşkil edən normativ təsəvvürlərə təsir etməyə başlamışdı.

Gələcəkdə liberal demokratiya əsas çətinliklərlə üçüncü və dördüncü səviyyələrdə qarşılacaqdır. Hazırda birinci və ikinci səviyyələr arasındakı fərq o qədər də böyük deyil. Potensial ideoloji rəqibləri müəyyən etmək çətindir, və hər hansı bir təşəbbüsə motivasiya verən alternativ institutlar az saydadır. Bu səviyyədə baş verən mübahisələr əsasən marjinal xarakter daşıyır. Çünki burada dövlətin ümumi rifahı naminə imkanların genişləndirilməsi və ya məhdudlaşdırılması, prezident idarəçiliyinin üstünlükləri və digər oxşar məsələlər müzakirə olunur. Əslində, mən cəsarətlə iddia edərdim ki, institutlar səviyyəsində sosial mühəndislik özünü doğrulda bilməyib: ötən əsrin təcrübəsi bir çox demokratik dövlətlərə bunu bir daha nümayiş etdirmişdir, institutların iddialı yenidənqurma təşəbbüsləri çox vaxt problemləri həll etməkdənsə, əksinə, onların gözlənilmədən yaranmasına səbəb olub. Müasir demokratik dövlətlərin həyat keyfiyyətinə təsir edən real çətinliklər sosial və mədəni normadan kənar hesab olunur və onların dövlət siyasəti və institusional səviyyədə həlli mümkün deyil. Məhz bu məqamda mədəniyyət amili ön plana çıxır.

**Demokratiyanın rəqibləri**

Görünür ki, demokratiyanın aşkar sistematik rəqiblərindən yalnız biri gündən-günə güc toplayır və demokratiyanın doğma vətənində ona meydan oxumaq iqtidarındadır. Həmin yeganə ciddi rəqib – Asiya avtoritarizminin paternalist formasıdır. Digər rəqiblər kimi isə: ifrat millətçilik və ya faşizm; 2) islam; 3) bərpa olunan neobolşevizm ehtimal olunur. Sadalanan hər bir hərəkat qlobal ideoloji hərəkata çevrilməyə cəhd etdikdə ciddi çətinliklərlə üzləşir. İlk növbədə diqqət çəkən məqam odur ki, hər üç hərəkat müasir təbiət elmlərinin tələblərinə adaptasiya olmaqda çox çətinlik çəkir və buna görə gündən-günə qloballaşan texnoloji və iqtisadi inteqrasiyadan imtina etmək məcburiyyətində qalırlar.

Məsələn, faşizm nümunəsinə nəzər salaq. Son illərdə baş verən etnik münaqişələr və miqrasiyalar liberal siyasi nəzəriyyənin çatışmayan cəhətlərini üzə çıxarmışdır. Liberal dövlətlər xalqların ümumi mənşəyinə əsaslanaraq birləşmə meyllərini inkar etsələr də, bu o demək deyil ki, həmin problemlər liberal dövlətlər üçün həllolunmazdır. Onların əksəriyyəti fərdin hüquqlarına əsaslanan qlobal mühitdə qrup plüralizminə söykənən institutlar yaratmağa nail olmuşdur. Əksinə, Serbiya kimi ifrat millətçiliyə meyilli dövlətlər tolerantlığın fundamental liberal prinsiplərinə əməl etmədiklərindən uğur qazana bilməmişlər. Həmin ölkələrin əhalisi etnik-baxımdan qeyri-yekcins olduğundan, burada etnik təmizləmə ideyaları gündəmdə

olmuşdur. Bu isə münaqişələrə, müharibələrə və müasir güc dövlətlərin iqtisadi əsaslarının sarsılmasına səbəb olmuşdur. Məhz buna görə təəccüblü deyil ki, Serbiya istər Qərbi, istərsə də Şərqi Avropada Rusiya, Moldova və Macarıstan kimi dövlətlərlə müqayisədə (bir neçə narazı şəxslərdən ibarət marjinal qruplar istisna olmaqla), təəssüf ki, nümunəvi cəmiyyətə çevrilə bilməmişdir.

Etnik münaqişələr demokratiya üçün ciddi təhlükə kimi çıxış etsə də, müvəqqəti xarakter daşıyır. Yaxın Şərqdə marjinal qruplar arasında yayılmış islam fundamentalizminin dalğası hələ də səngiməsə də, indiyədək heç bir fundamentalist dövlət industrializasiya prosesinə qarşı çıxa bilməmişdir. Hətta zəngin təbii sərvətlərin varisi olan dövlətlər belə, bir tərəfdən hakimiyyəti ələ almağa kömək etmiş sosial problemlərin effektiv həllinə nail ola bilməmişdilər. Müasir İranda narazılıq dalğası olduqca yüksəkdir. Məhz bu hal İslamın mədəni ənənəsi ilə əlaqəsi olmayan hər bir kəsdə islam fundamentalizminə qarşı ifrat hissi oyadır.

Liberal demokratiyanın digər ideoloji rəqibi kommunizmin yenilənmiş formasıdır. Doğrudur ki, kommunistlər Litva, Polşa, Macarıstan və Şərqi Almaniyada yenidən hakimiyyətə qayıtmış, keçmiş kommunist məkanının digər hissələrində isə hakimiyyət müəyyən mənada ümumiyyətlə əldən verilməmişdir.

Lakin həmin qruplar əsasən kapitalizmə keçidin tempini bir qədər ləngitməyə çalışmış və geniş sosial sığorta sisteminin yaradılmasını tələb etmişlər. İctimai rəy sorğularının nəticələri göstərir ki, onları başlıca olaraq təqaüdçülər, keçmiş kommunist elitasının nümayəndələri və köhnə sistemə sadiq kiçik qruplar dəstəkləyir. Neokommunistlərin iqtisadi proqramlarının yaxın perspektivdə uzunmüddətli iqtisadi inkişafı nəzərdə tutmadığı faktı isə demək olar ki, nəzərə alınmır.

Faşizm, islam və neobolşevizmin qlobal ideologiyaya çevrilməsi üçün ciddi əsaslar olmasa da, bu o demək deyil ki, onlar regional səviyyədə yayılmayacaqlar. Bu cərəyanlar yerli miqyasda əhalinin həyat keyfiyyətinə mənfi təsir göstərə və fəal demokratik siyasi sistemlərin qüvvələrinin konsolidasiyasına mane ola bilərlər. Lakin onların region hüdudlarından kənarda hakimiyyətə gəlmək imkanı əldə etmələri ehtimalı olduqca zəifdir. Nəticədə paternalist Asiya avtoritarizmi liberal demokratiyanın yeganə ciddi rəqibi olaraq qalır. Danılmazdır ki, Asiya avtoritarizmi də faşizm və islam kimi regional səviyyə daşıyan hadisələrdi. Şimali Amerika və ya Avropada konfutsiçiliyin milli ideologiya kimi qəbul edilməsi ağıla sığmazdır. Lakin Asiya təcrübəsi Qərb insanlarını «Qərb cəmiyyətinin» nöqsanlarının etirafına vadar etmişdir. Yuxarıda sadalanan üç ideologiyadan heç biri buna bu səviyyədə nail ola bilməmişdir. Məhz asiyalılar müasir texnoloji dünyaya adaptasiya olaraq Qərblə rəqabət apara bilən, bəzi hallarda isə ondan üstün olan kapitalist cəmiyyət modeli formalaşdırmağa nail olmuşlar. Bu gün Asiyanın qlobal

hökmranlıqda çəkisi durmadan artır. Lakin Asiya eyni zamanda ideoloji çağırışlarla da çıxış edir. Məlum olan Asiya alternativinin əksər anlayışları sosial-siyasi sistemlərə, xüsusilədə institusionalizmə dair müasir Qərb siyasi və fəlsəfi təriflərinə meyillilikdən əziyyət çəkir. Məhz buna görə də Asiyanın «yumşaq» avtoritarizminin nisbətən azad bazarı güclü siyasi hakimiyyətlə (fərdi hüquqlar hesabına qrup konsensusunu dəstəkləyən hakimiyyətlə) uzlaşdırılması barədə fikirlərlə tez-tez rastlaşmaq mümkündür. Bu cür təhlil müəyyən mənada həqiqətə uyğun olsa da, Asiya cəmiyyətlərinin mühüm xüsusiyyətlərini nəzərdən qaçırır. Ənənəvi Asiya mədəniyyətlərində siyasi hakimiyyət yalnız düzgün qurulmuş institutlar üzərində bərqərar olmur. O, həmçinin fundamental sosial strukturların qarşılıqlı anlaşmanı təmin edən geniş kütlələrin əxlaqi tərbiyəsinə də əsaslanır. (Bu mənada konfutsiçiliyin təmayülü Qərb klassik siyasi fəlsəfəsi ilə səsləşir). Başqa sözlə, Qərbin müasir siyasi fikri yuxarıdan aşağıya doğru, birinci və ikinci səviyyələrə arxalanaraq ədalətli sosial quruluş yaratmağa çalışdığı halda, ənənəvi Asiya mədəniyyətləri üçüncü və dördüncü səviyyələrə dayaqlanaraq aşağıdan yuxarı istiqamətdə inkişaf edir. Bu baxımdan konfutsiçilik fərdləri onların fərdiyyətçiliyini ailəyə xidmət məqsədinə tabe etdirərək sosiallaşdırır. Ailə Çin cəmiyyətinin fundamental struktur komponentidir. Daha böyük siyasi strukturlar aşağı səviyyəli elementlərin məcmusundan formalaşır. Məsələn, sülalə ailələr birliyini, Çin imperator sistemi isə bütövlükdə Çin xalqının ailəsini təcəssüm etdirir. Burada imperator hakimiyyəti atanın ailədə hökmranlığı prinsipi əsasında həyata keçirilir.

Asiya cəmiyyətləri inkişafa dördüncü mərhələdən başlandıqlarına görə yüksəliş hətti ilə inkişaf edirlər. Bu səbəbdən də onların yaratdıqları və ya uyğun gəldikləri siyasi strukturlar müəyyən mənada qeyri-müəyyən xarakter daşıyır. Məhz buna görə konfusiçi yanaşmanın nümayəndəsi olan alim Du Veym XX əsrdə modernləşmiş Asiya cəmiyyətlərini «siyasi konfusiçilik» kimi səciyyələndirir [2].

İmperiya sisteminin mövcudluğunu şərtləndirən ənənəvi siyasi konfutsiçilik cəmiyyətdəki olan əmin-amanlığa xələl gətirmədən digər siyasi institutlarla əvəz oluna bilərdi. Buna görə də Asiya alternativini parlamentin mövcudluğu və ya fərdin müəyyən hüquqlarının tanınması kimi konkret institutlarla eyniləşdirmək düzgün olmaz. Asiya alternativinin mahiyyətini fərdin hüquqlara deyil, dərin kök salmış sosial strukturlara və ictimai həyatın bünövrəsini təşkil edən əxlaq kodekslərinə əsaslanan cəmiyyət modelidir. Belə bir cəmiyyət Yaponiya kimi demokratik dövlətdə də, yarı-avtoritar Sinqapur kimi ölkədə də mövcud ola bilər. Doğrudur, bəzi institutlar – məsələn, kommunizm kimi sosial quruluşlar bu model ilə uyğunlaşmaya bilər; lakin cəmiyyətin xarakteri institutlardan çox, sosial strukturlar və onların mədəni uyğunluğu ilə müəyyən olunur.

**Asiya və Amerikada vətəndaş cəmiyyəti**

Asiya alternativinin qeyri-institutsional formaya malik olması barədə tezislə razılaşsaq məlum olur ki, onunla bütün dünyada demokratiyanın gələcəyi üçün maraqlı nəticələr mövcuddur. Birincisi, konfusiçilik və ənənəvi Asiya mədəniyyətinin digər elementlərinin Asiyada lberal demokratiyanın inkişafı üçün ciddi manelər törətməsi barədə fikirlərin həqiqətəuyğunluğu müəyyən dərəcədə şübhə doğurur. Bu fikri irəli sürənlər arasında asiyalı siyasətçi – Sinqapurun sabiq baş naziri Li Kvanyu və Qərb dünyasının təmsilçisi olan Samuel Xantinqton vardır. Li Kvanyunun fikrincə, yuxarıda qeyd olunan tezis həqiqi konfusiçiliyin qəsdən təhrifinə yönəlmişdir. Digər Asiya cəmiyyətləri, məsələn, Tayvan və Koreya son onilliklərdə konfusian xarakterlərini itirmədən, asanlıqla tanınan Qərb demokratiya modelinə doğru istiqamətlənmişlər. Yarı-konfusian mədəniyyətinə malik Yaponiya iki nəsillik zaman kəsiyi müddətində demokratik institutlarla tamamilə uyğunlaşa bilmişdir. 1993-cü ilin iyul ayında başlanan və Liberal Demokratik Partiyanın hakimiyyətinin süqutu ilə nəticələnən siyasi gərginlik Yaponiyanın amerikan modelinə yaxın demokratik dövlətə çevrilməsi prosesinə əlavə təkan vermişdir.

Son illərdə Sinqapurun və Malayziyanın rəsmi şəxsləri və intellektualları tərəfindən təklif olunan aqressiv antiqərb və antidemokratik tərif tipi Li (Kvanyu-tərcüməçidən) və Malayziyanın baş naziri Datuk Seri Maxatirdən qaynaqlanır. Görünür ki, onları əvəz edəcək yeni liderlər nəsli formalaşdıqca hər iki cəmiyyətin yapon-tayvan-koreya demokratiya versiyasına üstünlük verəcəyi açıq-aydın sezilir. Xantiqtonun səhvi isə təbiətinə görə konseptual xarakter daşıyır. O, konfusiçiliyin mahiyyətini siyasi konfusiçilik kimi müəyyən edir. Halbuki konfusiçilik, əslində, ailə və digər aşağı səviyyəli sosial münasibətlər haqqında təlimin qorunub saxlanılan bir hissəsini təşkil edir [3].

Nəzəri baxımdan konfusian sosial strukturlarla demokratik siyasi institutların yanaşı mövcudluğuna mane olacaq heç bir səbəb yoxdur. Əksinə, hətta sonuncuların daha sürətlə inkişafını təsdiqləyən tezisi belə irəli sürmək mümkündür.Digər tərəfdən, konfusiçiliyin müasir demokratiya ilə uyğunlaşmasının mümkün olması faktı o demək deyildir ki, Asiyada demokratiya mütləq inkişaf edəcəkdir. Gələcəkdə demokratik institutların nüfuzu Qərb institutlarının Asiyada necə qarşılanacağından deyil, daha çox Qərb cəmiyyətinin və mədəniyyətinin orada qarşılaşdığı problemlərə necə cavab verəcəyindən asılı olacaqdır.

Son iyirmi ildə həmin nüfuz xeyli zəifləmişdir. Bu, müasir kommunikasiya vasitələrinin Asiya əhalisini ABŞ-da baş verən hadisələrlə daha yaxından tanış etməsi ilə deyil, daha çox Amerikanın sosial problemlərinin (zorakılıq zəminində cinayətlər, narkotiklər, irqlərarası münasibətlərdə gərginlik, yoxsulluq və s.) kəskinləşməsi ilə bağlıdır. Başqa sözlə, amerikanlar birinci və ikinci səviyyələrdə asiyalılara müəyyən üstünlük mövqeyindən yanaşdıqları halda,

asiyalılar anlayırlar ki, onların cəmiyyətləri üçüncü və dördüncü səviyyələrdə Amerika üzərində müəyyən üstünlüklərə malikdir.

ABŞ-ı tənqid edən asiya tənqidçiləri, o cümlədən Li Kvanyu hesab edirlər ki, birinci və ikinci səviyyələr üçüncü və dördüncü səviyyələrlə ayrılmaz sürətdə bağlıdır. Yəni, liberal, hüquqlara əsaslanan institutlar vətəndaş cəmiyyətinə və mədəniyyətinə dağıdıcı təsir göstə bilər və bu halda demokratiya sosial strukturun aşınmasına səbəb olar. Bu baxımdan, Asiyada liberal demokratiyanın taleyi ABŞ-ın xırda institusional deyil, həlli çətin olan sosio-mədəni problemlərlə hansı səviyyədə bacara biləcəyindən asılıdır.

Həqiqətən də, birinci və ikinci səviyyələrlə, digər tərəfdən isə üçüncü və dördüncü səviyyələr arasında müəyyən əlaqə mövcuddur. Lakin bu əlaqələr Li və digərlərinin təsəvvür etdiyindən fərqli olaraq daha mürəkkəb xarakter daşıyır. Fərdin hüquqlarına əsaslanan liberalizm daha güclü icma sosial strukturları və müntəzəm mədəni adətlərlə tamamilə uyğunlaşa bilər. Əslində təsdiq etmək olar ki, müasir vətəndaş cəmiyyətinin və mədəniyyətin həqiqi əhəmiyyəti ənənəvi liberal siyasi və iqtisadi doktrinaya xas olan dağıdıcı fərdiyyətçiliyi tənzimləmək və ya qarşısını almaq iqtidarında olan demokratik dövlətlə bağlıdır. Tokvil, Veber və Amerika cəmiyyətinin digər tədqiqatçılarının qeyd etdikləri kimi, Amerika cəmiyyəti heç vaxt ayrı-ayrı düşmüş fərdlərin «qum təpəsi»nə bənzəməmişdir. Çünki digər amillər (məsələn, Amerika protestantizminin sektant xarakteri) qruplaşma prosesinin nizamlanmasına ciddi təsir göstərirdi. Yalnız son 50 il ərzində fərdi yönüm icma münasibətləri üzərində üstünlük qazanmağa başlamışdır. Amerika sisteminin bu nəticəyə gəlməsi təsadüfi deyildir. Bu prosesi qaçılmaz saymaq da doğru olmaz; və o, heç də «demokratiya» nın məcburi nəticəsi deyildir. Konstitusiya hüququ üzrə tədqiqatçı Meri Enn Qlendon göstərir ki, ABŞ Avropa demokratiyalarından fərqli olan özünəməxsus «hüquq dili»nə malikdir [4]. Bu amerikan liberal dialekti bir çox asiyalılarda «per se» demokratiya ilə assosiasiya olunur.

Beləliklə, liberal demokratiyanın taleyini müəyyən edən onun institutlara xas mübarizə təbiəti deyil, daha çox bütün dünyada əhəmiyyətli dərəcədə əldə olunan konsensusdur. Həqiqi qarşıdurma vətəndaş cəmiyyəti və mədəniyyəti səviyyələrində baş verəcəkdir. Həmin sahələr yeni demokratik dövlətlər üçün kritik əhəmiyyət kəsb edir. Lakin hal-hazırda ABŞ-da baş verən «mədəni müharibələr»in nəticələri göstərir ki, vətəndaş cəmiyyətinin sağlamlığı və dinamikası çoxdan formalaşmış stabil demokratik ölkələrdə olduğu kimi problematik xarakter daşıyır.

1. Mürəkkəb və müxtəlif səbəblərdən asılı olan vətəndaş cəmiyyətinin yaranmasına dair mülahizələr aşaıdakı kitabda əksini tapıb: Ernest Gellner, Conditions of Liberty: Civil Society and Its Rivals (Azadlığın şərtləri: vətəndaş cəmiyyəti və onun rəqibləri, London: Yamisy Yamilton, 1994). Həmin və digər iki kitabın təhlili E. Gellner: Encounters wity Nationalism

(Blackwell Publisyers, 1983) i Muslim Society (Cambridge University Press, 1983) kitablarında əksini tapıb.

2. Tu Wei-ming, Confucian Etyics Today: Tye Singapore Cyallenge (Konfutsi etikası bu gün: Sinqapur çağırışları, Singapore: Curriculum Development Institute of Singapore, 1984), 90.

3. Mən həmin problemi "Journal of Democracy» jurnalının aprel sayında (1995) çap olunacaq konfusiçilik haqqında məqalədə daha ətraflı müzakirə etmək əzmindəyəm.

4. Mary Ann Glendon, Rigyts Talk: Tye Impoverisyment of Political Discourse (Siyasi fikrin kasadlaşması, New York: Tye Free Press, 1991).

## БУДУЩЕЕ ДЕМОКРАТИИ: ГЛАВЕНСТВО КУЛЬТУРЫ

**ФРЭНСИС ФУКУЯМА**
*Старший научный сотрудник имени Оливье Номеллини*
*Центр демократии, развития и верховенства права (CDDRL)*
*Директор магистэрской программы Форда-Дорси по международной политике*
*Институт международных исследований имени Фримена Спогли*
*Стэнфордский университет*

***Перевод и предисловие:***
**ЕГАНА АЛИЕВА**
*Ведущий научный сотрудник Института архитектуры и искусства*
*Национальной Академии Наук Азербайджана*
*Доктор философии в области культурологии*

**Резюме**

Читателю представлен научный перевод статьи «Будущее демократии: главенство культуры» (1995) Фрэнсиса Фукуямы, американского политолога японского происхождения, философа и исследователя культуры. Выдвинутые в статье положения не утратили своей актуальности и в наши дни, напротив, они показывают, что идеи о роли культуры в развитии общества все больше подтверждаются. Автор статьи Ф. Фукуяма определяет культуру как главный фактор формирования политико-экономических институтов в XXI веке, что еще раз подтверждает актуальность обращения к его статье в контексте азербайджанских реалий. В данном тексте автор обосновывает тезис о том, что стабильность политических институтов напрямую зависит от социокультурной основы общества. Перевод адаптирован к особенностям культурологической терминологии и сопровождается научными комментариями переводчика, разъясняющими контекст и основные концепции автора. Перевод может служить научным источником для специалистов, проводящих теоретические исследования в области культурологии, культурной политики и социокультурной философии.

**Ключевые слова**: Фрэнсис Фукуяма, культура, культурология, культурная политика, социокультурная философия.

# DEMOCRACY'S FUTURE: THE PRIMACY OF CULTURE

**FRANCIS FUKUYAMA**
Olivier Nomellini Senior Fellow
Center on Democracy, Development and the Rule of Law
Director, Ford Dorsey Masters in International Policy
Freeman Spogli Institute for International Studies
Stanford University

***Translation and Preface:***
**YEGANA ALİYEVA**
Leading researcher of the Institute of Architecture and Art
National Academy of Sciences of Azerbaijan
PhD in culture study, associate professor

**Abstract**

The reader is presented with a scientific translation of the article « Democracy's Future: The Primacy of Culture» (1995) by Francis Fukuyama, an American political scientist of Japanese origin, a philosopher and a researcher of culture. The positions advanced in the article have not lost their relevance and nowadays, on the contrary, they show that the ideas about the role of culture in the development of society are increasingly confirmed. The author of the article, Fukuyama, defines culture as the main factor in the formation of political and economic institutions in the XXI century, which once again confirms the relevance of addressing his article in the context of Azerbaijani realities. In this text, the author justifies the thesis that the stability of political institutions directly depends on the sociocultural basis of society. The translation is adapted to the peculiarities of cultural terminology and is accompanied by scientific comments of the translator, explaining the context and the main concepts of the author. The translation can serve as a scientific source for specialists conducting theoretical research in the field of culture, cultural policy and sociocultural philosophy.
**Keywords**: Francis Fukuyama, culture, culturology, cultural politics, sociocultural philosophy.

**Məqalənin redaksiyaya daxilolma tarixi**: 15.01.2026

**Qəbulolunma tarixi**: 12.02.2026